Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili - Azərbaycan dövlətçiliyi müasir mərhələdə**

**Azərbaycanın dövlətçilik tarixi, milli adət-ənənələri, elm və mədəniyyətinin təbliği həlli olduqca vacib məsələlərdən biri kimi qarşıda durur. Əlbəttə, bu mövzunun geniş şəkildə araşdırılması, müxtəlif rakurslarda təhlil edilməsi önəmlidir.**

# Müstəqil dövlətçilik tariximizdə ən yeni ideoloji tezislər - bərpa başqa, ilk dəfə bəyan etmək başqa...



Azərbaycan tarixinin, mədəniyyətinin, ədəbiyyatının, eləcə də elminin elə qatları var ki, onların araşdırılıb üzə çıxarılmasına ciddi zərurət var. Bilirik ki, Azərbaycanın zəngin dövlətçilik tarixi, dövlətçilik ənənəsi var və biz bu ənənə ilə əsrlərdir öyünürük. Dövlət və xalq olaraq qarşıda duran əsas vəzifələrimizdən biri həm də, Azərbaycanın dövlətçilik tarixini, milli adət-ənənələrini, elm və mədəniyyətini effektli şəkildə təbliğ etməkdən ibarətdir. Ümummilli lider Heydər Əliyev Azərbaycan tarixi, mədəniyyəti, adət və ənənələri haqqında çox qiymətli fikirlər bildirirdi: "Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir. Keçid dövrünün çətinliklərinə, ağır proseslərinə baxmayaraq, biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətdə aça bilmiş və xalqa göstərməyə nail olmuşuq. Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrənərək böyük qürur hissi duymağa başlayır və sözsüz ki, bununla fəxr edir".

**Biz müstəqillik tariximizlə bağlı yeni yanaşma, tarixə düzgün qiymətin verilməsi mövqeyini ortaya qoyuruq...**

Azərbaycanın ən parlaq tarixi səhifələrindən olan ikinci dəfə müstəqilliyimizin bərpası ilə bağlıdır. Artıq həmin tarixin 30-cu ildönümünü qeyd edirik. 1991-ci il oktyabrın 18-də Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmaq imkanı qazanmış, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə özünün Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu dünyaya bəyan edib. Azərbaycan müstəqilliyinin ilk illərində çoxsaylı təhlükələrlə üzləşmiş, ağır sınaqlardan keçib. Daxili çəkişmələr, dövlət idarəçiliyindəki özbaşınalıq və səriştəsizlik, ağır siyasi və iqtisadi böhran ölkəni vətəndaş müharibəsi astanasına gətirmiş, onun gələcək taleyini sual altına qoymuşdu. Məhz bu şəraitdə Azərbaycan torpaqları Ermənistan silahlı qüvvələri tərəfindən işğala məruz qalmış, yüz minlərlə soydaşımız öz dədə-baba yurdlarından didərgin düşmüşdü. Azərbaycan öz gücünə tarixi ədaləti bərpa etdi. 44 günlük müharibə nətiəsində ərazilərini işğaldan azad etdi. Bununla yanaşı, biz müstəqillik tariximizlə bağlı yeni yanaşma, tarixə düzgün qiymətin verilməsi mövqeyini ortaya qoyuruq.

**Müstəqil Azərbaycanın doğum günü də, məhz o gün əbədi və dəyişilməz olaraq tarixə həkk olundu...**

Prezident İlham Əliyev oktyabrın 17-də Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bu məsələyə tam aydınlıq gətirib: "Sabah - oktyabrın 18-i tarixi gündür. Otuz il bundan əvvəl Azərbaycan dövlət müstəqilliyini elan etmişdir. Bildiyiniz kimi, mənim təşəbbüsümlə milli bayramlarımızla bağlı Azərbaycan Milli Məclisi düzəlişlər edib. Mən hesab edirəm ki, bu düzəlişlər tarixi həqiqətə və tarixi ədalətə tam uyğundur". Prezident İlham Əliyev bildirib ki, bizim üçün əsas müstəqillik bayramı 28 May günüdür, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması günüdür: "Biz haqlı olaraq fəxr edirik ki, müsəlman aləmində birinci demokratik respublika məhz Azərbaycan xalqı tərəfindən yaradılmışdır. Biz bu gün müstəqil ölkə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin varisiyik. Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. 1991-ci il oktyabrın 18-də isə müstəqillik bərpa edildi. Edilən düzəlişlər məhz bu uyğunsuzluğa son qoydu və bunu hər kəs bilməlidir".

Göründüyü kimi, ölkə başısının təşəbbüsü ilə Milli Məlisdə tariximizdə baş verən mühüm hadisələr ayrı-ayrılıqda öz adları ilə təsnifatlandırılıb. Təbii ki, biz də xalq və millət olaraq hazırkı müstəqil dövlətimizin yaşının dünya coğrafiyasında minilliklərə və ya çoxəsrlik tarixə dayanmasını istərdik. Hər bir halda bir xalq kimi mövcudluğumuzun tarixi minilliklərə dayansa da, yerləşdiyimiz coğrafi mövqenin mürəkkəbliyi və daim dünya güclərinin maraqları üçün episentr olması müstəqil olmağımıza mane olub. Ancaq insanlığa böyük bəlalar gətirən birinci dünya müharibəsindən sonra bir çox imperiyaların məhvi və dünya coğrafiyasının yenidən şəkillləndirilməsi müəyyən mənada bizim də işimizə yaradı. Mövcud vəziyyəti və baş verən prosesləri düzgün qiymətləndirən tarixi şəxsiyyətlərimiz müstəqil Azərbaycan dövlətinin qurulmasına nail oldular və hazırkı coğrafiyamızda ilk dəfə olaraq 28 may 1918-ci ildə Azərbaycan adlı dövlət yaradıldı. Hər bir hadisənin konkret olaraq bir tarixi olduğu kimi, müstəqil Azərbaycanın doğum günü də, məhz o gün əbədi və dəyişilməz olaraq tarixə həkk olundu. 18 oktyabr 1991-ci ildə yenidən o müstəqilliyimizi bərpa etmək bizə nəsib oldu. Təbii ki, yenidən müstəqilliyimizə qovuşduğumuz zaman 70 il əvvəl qoyduğumuz çox şey yerində deyildi. Azərbaycan get-gedə itirdiklərini uğurla bərpa edir. Ən əsası isə ərazi bütövlüyünü bərpa etməyi bacardı.

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**